2022.14 iyul. S.8.
RESPUBLİKA

# Zəfərə aparan rəşadətli yolun başlanğıcı

hərbçiləri dövlət başçısı İlham Əliyev nisgilli duyğularla yad etmiş, onların qəhrəmanlığını gənc nəsil üçün örnək saymışdır. Bu da əslində, Ali Baş Komandan tərəfindən Vətən müdafiəçilərinə göstərilən qayğının bir nümunəsi idi. Bununla cənab İlham Əliyev qürurla qeyd edirdi ki, Vətənin müdafiəsi yolunda canını fəda edənlər heç zaman unudulmayacaqlar. Əksinə, Azərbaycan xalqı haqlı olaraq onlarla fəxr edəcəkdir: "General Polad Həşimov, polkovnik İlqar Mirzəyev həlak olmuşlar. Onların həyatı, torpaq, Vətən uğrunda göstərdikləri şücaət, qəhrəmanlıq hər bir gənc üçün nümunə olmalıdır. Biz fəxr edirik ki, Azərbaycan xalqı, Azərbaycan torpağı belə övladlar yetişdirib".

Tovuz döyüşlərində tarixi zəfərin əldə edilməsinin bir göstəricisi də, şübhəsiz, qüdrətli Azərbaycan Ordusunun mövcudluğu idi. Möhtəşəm bir ordunun yaradılması İlham Əliyevin prezidentliyi dövründə Ali Baş Komandan kimi əldə etdiyi tarixi nailiyyətlərdəndir.

2020-ci il sentyabrın 27-dən başlayan 44 günlük Vətən müharibəsində Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın Müzəffər Ordusu hər gün yeni zirvələri fəth edərək düşmən tapdağında olan ərazilərimizi bir-birinin ardınca işğaldan azad etdi. Əsgərlərimiz qəhrəmanlıq və igidlik göstərərək Vətən uğrunda şərəflə döyüşüb, öz adlarını Azərbaycanın tarixinə yazdılar. Birinci Qarabağ müharibəsində torpaqlarımızın azadlığı naminə canından keçən minlərlə ölümsüz qəhrəmanımızın, o cümlədən Vətən müharibəsində şəhidlik zirvəsinə yüksələn 3000-ə yaxın igidimizin qanı yerdə qalmadı. Düşmənə layiq olduğu cavab məğlubedilməz ordumuzun yüksək döyüş əzmi, ruhu ilə savaş meydanında - Qarabağın ürəyi Şuşada verildi. İgid, qəhrəman oğullarımız son damla qanları, nəfəslərinədək savaşaraq düşməni diz çökdürdülər, şücaəti, mərdliyi ilə dillərdə dastan oldular.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev dəfələrlə vurğulamışdır ki, müharibədə Azərbaycanın qələbəsini şərtləndirən bir sıra faktorlar var idi. Bunların içərisində ən önəmlisi, ən vacibi ordu amili idi. Vətən müharibəsində məhz Azərbaycan əsgəri, zabiti qalib oldu.

Bu gün ölkəmiz güclü bir orduya sahibdir. Azərbaycan Silahlı Qüvvələri deyiləndə artıq hər kəsin gözü önündə canlanan bir mənzərə var: Vətən müharibəsi, qalib ordu, qələbə hissini yaşayan xalq.

**M.MİRZƏ,**
**"Respublika".**